# *Qaragözova Elnarənın "Postmodernizm" kitabı çap olunub*




Kitabda AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Elnarə Qaragözovanın postmodernizm cərəyanı ilə bağlı tədqiqatları təqdim olunur. Elmi araşdırmalarının əsas istiqamətini ədəbi cərəyanlar təşkil edən müəllif iki bölmədən ibarət olan bu kitabda toplanan məqalələrində müasir dünya ədəbi prosesində müzakirə mövzusu olan postmodernizm cərəyanının Azərbaycan ədəbiyyatında təzahürünə, ümumən Azərbaycan postmoderni anlayışının əsas aspektlərinə nəzər salmışdır. Müəllifin sayca üçüncü olan kitabının sonunda postmodernizmlə bağlı daha öncə çap olunmuş elmi məqalələrinin siyahısı da yer almışdır.

**Ədəbiyyat qəzeti.- 25 dekabr.- 2021- ci il.- S. 41.**